# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2014-cü ildə keçirilmiş 7-ci "Mobillik qrantı" müsabiqəsinin (EİF-Mob-7-2014-8(23)) qalibi olmuş layihə üzrə

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin nömrəsi: **EİF-Mob-7-2014-8(23)-06/06/5-M-02**

Layihənin adı: **Birinci Dünya müharibəsi illərində Rusiya-erməni əlaqələri və Qarabağda erməni terroru**

Müqavilənin imzalanma tarixi: **15 may 2015-ci il**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Hacıyev Sani Tofiq oğlu**

Layihənin yerinə yetirilmə müddəti: **21 gün**

Layihənin başlama və bitmə tarixi: **22 may 2015-ci il- 30 iyul 2015-ci il**

Qrantın məbləği: **5500 manat**

| | | |
|---|---|---|
| 1. | *Qısamüddətli elmi təcrübənin keçirildiyi ölkə və şəhər* | Türkiyə, İstanbul, Ankara |
| 2. | *Qısamüddətli elmi təcrübənin keçirildiyi təşkilatın və ya onun struktur bölməsinin tam rəsmi adı* | Türkiye Cumhuriyeti Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı |
| 3. | *Təcrübəkeçmənin baş tutduğu təşkilat rəhbərinin adı* | Uğur Ünal |
| 4. | *Təcrübəkeçmənin baş tutduğu təşkilatda təcrübəkeçməyə məsul şəxsin adı* | Uğur Ünal |
| 5. | *Layihənin icra müddəti (dəqiq gediş-gəliş vaxtı dəqiq göstərilməli)* | 03.06.2015-24.03.2015 |
| 6. | *Təcrübəkeçmədən əldə edilən elmi nəticələr, onların yenilik* | 1914-1918-ci illərdə Birinci Dünya müharibəsinin başlıca qüvvələrindən biri də Rusiya imperiyası idi və |

| | |
|---|---|
| ***dərəcəsi, təcrübəkeçmənin elmi və praktiki əhəmiyyəti*** | onun Qafqaz cəbhəsində ən böyük rəqibi Osmanlı impeiyası idi. Osmanlı hərbi qüvvələrini yenmə küçün Rusiya silahlı qüvvələr və diplomatiya ilə yanaşı, separatçılıq və terroru dəstəkləmək siyasətinə də böyük yer verirdi. İstər Anadolunun özündə, istərsə də Azərbaycanda (Qarabağda və Naxçıvanda) erməni əhalinin separatçılığını və terrorunu dəstəkləməklə Rusiya imperiyası bölgədə türk amilinin zəliflədilməsinə nail olmaq istəyirdi.<br><br>1914-1918-ci illərdə Birinci Dünya müharibəsinin başlıca qüvvələrindən biri də Rusiya imperiyası idi və onun Qafqaz cəbhəsində ən böyük rəqibi Osmanlı impeiyası idi. Osmanlı hərbi qüvvələrini yenmə küçün Rusiya silahlı qüvvələr və diplomatiya ilə yanaşı, separatçılıq və terroru dəstəkləmək siyasətinə də böyük yer verirdi. İstər Anadolunun özündə, istərsə də Azərbaycanda (Qarabağda və Naxçıvanda) erməni əhalinin separatçılığını və terrorunu dəstəkləməklə Rusiya imperiyası bölgədə türk amilinin zəliflədilməsinə nail olmaq istəyirdi.<br><br>1914-1918-ci illərdə Rusiya imperiyası Qafqaz cəbhəsində Osmanlı silahlı qüvvələrini yenmək üçün bir çox vasitələrdən, o cümlədən erməni əhalinin pozuculuq əməlllərinə yadım etmək siyasətindən istifadə edirdi. Bu siyasətin nəticəsi idi ki, Osmanlı imperiyası ərazisində kütləvi şəkildə yaşayan erməni əhalinin bir qrupu, dəqiq desək, daha çox terrorçu qrupu Rusiya imperiyasının ərazisinə, o cümlədən Qarabağa keçirdi. Bu ərazidə çoxluq təşkil edən Azərbaycan türklərinə qarşı soyqırımlarında Anadolu ermənilərinin böyük rolu olmuşdur.<br><br>Türkiyə Cümhuriyyətinin arxivlərində bu məsələ ilə bağlı xeyli sayda arxiv sənədləri vardır. Bu sənədlərin aşkar edilərək Azərbaycana gətirilməsi elmi zərurət təşkil edir və siyasi əhəmiyyətə malikdir.<br><br>Layihənin mövzusu ilə bağlı Azərbaycan və Türkiyə tarixşünaslığında xeyli araşdırmalar aparılmışdır və bu sırada aşağıdakı əsərləri xüsusi qeyd etmək lazımdır (S.T.Hacıyev. Türkiyə - Rusiya münasibətləri və erməni terroru. Bakı, 1998; Osmanlı belgelerinde ermeni-rus ilişkileri. Ankara, 2006). Lakin |

son onillikdə ermənilərin ideoloji mübarizəsinin güclənməsi, ələlxüsus 1915-ci il qondarma “soyqırımı” ilə bağlı iri dövlətlərin parlamentlərində və hökumətlərində təbliğat kampaniyalarını genişləndilməsi göstərir ki, bu mövzunun davamlı araşdırılmasına ehtiyac var və bu sahədə tədqiqatlar hələlik arzuolunan sayda deyil. Ona görə də hazırkı layihənin də məqsədindən çıxış edərək, Anadoluda və Qafqazlarda, ələlxüsus Qarabağda və Azərbaycanın digər bölgələrində erməni terrorunun bir çox məsələlərinin, o cümlədən bu terrora dəstək verən iri dövlətlərin siyasətinin ifşa edilməsi elmi və siyasi aktuallıq kəsb edir.

Layihənin məqsədi 1914-1918-ci illərdə Rusiya imperiyasının Osmanlı imperiyasına qarşı mübarizədə erməni separatçılığından və terrorundan istifadə etmək siyasəti və bu siyasətin Azərbaycan, o cümlədən Dağlıq Qarabağ bölgəsindəki türk əhali üçün nəticələrini araşdırmaq olmuşdur.

Qarşıya qoyulan məsələlər: 1914-1918-ci illərdə Rusiya imperiyasının Qafqaz cəbhəsində Osmanlı türklərinə qarşı hərbi əməliyyatlarda erməni əhalidən istifadə edilməsinin Birinci Dünya müharibəsinin gedişinə təsirini izləmək, Azərbaycanda ermənilərin törətdikləri qətliamlarda Rusiya imperiyasının sövqedici rolunu araşdırmaq olmuşdur.

Təcrübəküçmənin başlıca nəticələri: 1914-1918-ci illərdə Rusiya imperiyasının Qafqaz cəbhəsində Osmanlı türklərinə qarşı hərbi əməliyyatlarda erməni əhalidən istifadə edilməsi Birinci Dünya müharibəsinin gedişinə kifayət qədər təsir göstərmişdir və əldə dedlən materaillar Azərbaycanda ermənilərin törətdikləri qətliamlarda Rusiya imperiyasının sövqedici rolunu sübut edir.

Layihənin elmi və praktik əhəmiyyəti ilk növbədə onun aktuallığı ilə əlaqədardır. 1914-1918-ci illərdə Rusiya imperiyası Qafqaz cəbhəsində Osmanlı silahlı qüvvələrini yenmək üçün bir çox vasitələrdən, o cümlədən erməni əhalinin pozuculuq əmalllərinə yadım etmək siyasətindən istifadə edirdi. Bu siyasətin nəticəsi idi ki, Osmanlı imperiyası ərazisində kütləvi şəkildə yaşayan erməni

| | | |
|---|---|---|
| | | əhalnini bir qrupu, dəqiq desək, daha çox savaşçı, terrorçu qrupu Rusiya imperiyasının ərazisinə, o cümlədən Qarabağa keçirdi. Bu ərazidə çoxluq təşkil edən Azərbaycan türklərinə qarşı soyqırımlarında Anadolu ermənilərinin böyük rolu olmuşdur. Türkiyə Cümhuriyyətinin arxivlərində bu məsələ ilə bağlı xeyli sayda arxiv sənədləri vardır. Bu sənədlərin aşkar edilərək Azərbaycana gətirilməsi elmi zərurət təşkil edir və həm də praktik əhəmiyyətə malikdir.<br><br>Təcrübəkeçmədən əldə edilən materiallar Azərbaycan, Türkiyə, Rusiya və Qafqaz tarixi üzrə monoqrafiyaların, dərsliklərin yazılmasında əyani vəsait olaraq istifadə edilə bilər. Bu materiallardan, həmçinin, Birinci Dünya müharibısi tarixi üzrə müxtəlif tədbirlərin, elmi konfransların keçirilməsində istifadəsi praktik əhəmiyyət kəsb edir. |
| **7.** | ***Təcrübəkeçmə zamanı istifadə olunmuş üsul və yanaşmalar*** | Arxiv materiallarının müqayisəli təhlili; mənbələrə tənqidi yanaşma; mənbə materiallarının elmi analizi |
| **8.** | ***Təcrübəkeçmə zamanı əldə olunmuş nəticələrin gözlənilən tətbiq sahələri (konkret olaraq qeyd etməli)*** | Ümumi tarix |

**Layihə rəhbərinin imzası** S. [signature]

**Tarix** 25.08.2015.